

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 74 (23.961)

*22 aprel 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası, Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub.

Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanışlıq zamanı bildirilib ki, ümumi sistemə daxil olan "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaq.

Sonra dövlətimizin başçısı Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış olub. Qeyd edək ki, bu yolun çəkilişinin bir əhəmiyyəti Şuşaya avtomobillə daha tez və rahat çatmaq, digər önəmi onun Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir. Prezident İlham Əliyev avtomobili tuneldə idarə edib.

Daha sonra Prezident İlham Əliyev Şuşa şəhərinə gəlib. Dövlətimizin başçısı əvvəlcə Şuşa şəhərində tullantıların idarə olunması poliqonunda gedən işlərlə tanış olub. Bildirilib ki, burada məişət tullantıları Avropa standartlarına uyğun xüsusi yeraltı konteynerlərdə yerləşdiriləcək. Poliqonda 4 çeşid üzrə 600 ədəd SMART yeraltı konteyner və 11 ədəd xüsusi texnika nəzərdə tutulub. Sonra Prezident İlham Əliyev Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub. Məlumat verilib ki, hazırda binada işlər tamamlanmaq üzrədir. Şəhərin arxitekturasına uyğun tikilən binada hər cür şərait yaradılacaq.

## Naxçıvanda iftar payları verilib



Muxtar respublikada Ramazan ayı və orucluq mərasimləri mənəvi dəyərlərimizə uyğun keçirilir.

Aprelin 21-də müqəddəs Ramazan ayı münasibətilə Naxçıvan şəhərindəki məscidlərdə dindarlara, məscid əhlinə, eləcə də ali təhsil müəssisələrində təhsil alan aztəminatlı yerli və əcnəbi tələbələrə, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında müalicə alan xəstələrə, Psixi xəstəliklər dispanserinə, "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsin, Naxçıvan Şəhər Sanitar Təmizlik İdarəsinin kollektivlərinə, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan sosial qayğıya ehtiyacı olan ailələrə, ümumilikdə, 3550 iftar payı verilmişdir.

Naxçıvan Dövlət Universitetində iftar paylarının verilməsi münasibətilə keçirilən tədbirdə universitetin prorektoru Seymur Talıbov çıxış edərək demişdir ki, Azərbaycan tolerant ölkədir. Muxtar respublikada dini dəyərlərimizə daim hörmətlə yanaşılır. Hazırda Naxçıvan Dövlət Universitetində bir çox ölkələrdən əcnəbi tələbələr təhsil alır. Bu gün həmin tələbələrin təhsili ilə yanaşı, həm də onlara milli-mənəvi dəyərlərimiz öyrədilir.





Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ali təhsil müəssisələrinin hər zaman Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunduğunu bildirmiş, göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

**"Şərq qapısı"**

## Müasir yollar sakinlərin rahatlığına xidmət edir



*Muxtar respublikamızda yol infrastrukturunun yaxşılaşdırılması da daim diqqətdə saxlanılır, rayon mərkəzləri ilə yanaşı, ən ucqar kəndlərdə yolların yenidən qurulması, bərpası istiqamətində kompleks tədbirlər görülür. Çünki yollar mədəniyyətin, inkişafın göstəricisi olmaqla yanaşı, həm də insanların rahatlığına xidmət edir.*

Hazırda muxtar respublikada əhalinin rahat gediş-gəlişinin təmin olunması istiqamətində dövlət büdcəsi hesabına irimiqyaslı layihələr reallaşdırılır. Naxçıvan şəhəri daxil olmaqla, ən ucqar kənd yollarının müasir standartlar səviyyəsində yenidən qurulması, bərpası, mövcud yolların istifadəyə yararlı vəziyyətə gətirilməsi işləri davam etdirilir. Bunlara ötən ildən tikintisi aparılan Ordubad rayonunun Vənənd-Pəzməri, Şərur rayonunun Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx avtomobil yollarını və digərlərini misal göstərmək olar.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşı Talıb Babayevlə söhbət zamanı qeyd etdi ki, ötən ildən tikintisinə başlanılmış Mirzə Ələkbər Sabir küçəsində və Xətai məhəlləsindəki yolların yenidənqurma işləri aparılır. Belə ki, bu yollarda asfalt-beton örtüyün yenidən çəkilişi, kommunikasiya xətlərinin yenilənməsi, lazım olan yerlərdə yol yatağının bərpa olunması və yaxud su kanallarının çəkilişi işləri həyata keçirilir. Bu ildən isə Babək rayonu Sirab kənd avtomobil yolu və Cəhri-Aşağı Buzqov avtomobil yolu, Ordubad rayonunda Azadkənd avtomobil yolunun yenidən qurulması, Şərur rayonunda Şərur Sənaye Məhəlləsinə gedən avtomobil yolunun və Həmzəli-Axura avtomobil yollarının yenidən qurulmasına başlanılıb.

Qeyd edək ki, bu il yanvar ayının14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Şərur rayonunun Çərçiboğan kəndinin ümumi uzunluğu 15,8 kilometr olan avtomobil yolunun açılışı olub.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqramı"nın icrası istiqamətində 2022-ci ilin birinci rübündə də işlər davam etdirilib.*

*Dövlət proqramı icra olunur*

## Rəqəmsal ödəniş infrastrukturu daha da təkmilləşdirilir

Mövcud rəqəmsal ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsilə bağlı Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi ilə birlikdə tədbirlər davam etdirilib, 1 aprel 2022-ci il tarixə muxtar respublika üzrə POS-terminal aparatlarının sayı 1548-ə çatdırılıb ki, onların da 739-u Naxçıvan şəhərində, 809-u rayon və kənd mərkəzlərində quraşdırılıb, ödəniş terminallarının sayı 150 ədəd təşkil edib, onların 56-sı MilliOn ödəniş terminalı olmaqla, 74-ü Naxçıvan şəhərində, 76-sı rayon mərkəzlərində yerləşdirilib, bankomatların sayı isə 116 ədəd olub. 2022-ci ilin birinci rübündə nağdsız ödənişlərin həcmi 38 milyon 924 min 721 manat olub ki, ödənişlərin 11 milyon 13 min 885 manatı POS-terminallar, 27 milyon 910 min 836 manatı isə internet və digər ödəniş vasitələri ilə həyata keçirilib.

Vergi orqanları tərəfindən vergiödəyicilərinin və sahibkarların maarifləndirmə işləri aparılıb, cari ilin 1-ci rübündə özəl sektorda 3 vergiödəyicisi üzrə 19 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin edilib.

Yeni yaradılan publik hüquqi şəxs statuslu müəssisələrdə mütəmadi maarifləndirmə işləri aparılmaqla, 2 publik hüquqi şəxsin 2 obyektində ödənişlərin nağdsız qaydada qəbul edilməsi üçün POS-terminalların quraşdırılması təmin olunub.

Muxtar respublika ərazisində fəaliyyət göstərən POS-terminal quraşdırılmış ticarət, iaşə və digər xidmət obyektləri də ödənişlərini nağdsız qaydada həyata keçirib. Belə ki, qeyd edilən dövrdə 206 vergiödəyicisi tərəfindən POS-terminal hesabına alınmış kartlar vasitəsilə 130 min 719 manat, 732 vergiödəyicisi tərəfindən isə öz şəxsi kartları vasitəsilə 323 min 975 manat vergi, sosial və dövlət büdcəsinə digər ödənişlər nağdsız qaydada ödənilib.

Xidmət mərkəzləri və POS-terminal quraşdırılmış kənd mərkəzlərində birinci rüb üzrə sahibkarlıq subyektləri və vətəndaşlarla 7 halda maarifləndirici görüşlər keçirilib, fevral ayında 2021-ci ilin 2-ci yarımilinin nəticələrinə uyğun olaraq daha çox nağdsız ödənişlər aparan vətəndaşlar arasında "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin 16-cı tirajı keçirilib və muxtar respublika üzrə 431 sakinə 25 min manat dəyərində müxtəlif hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## "Sənaye ili"nə həsr olunmuş vebinar keçirilib

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi tərəfindən "Sənaye ili"nə həsr olunmuş "Sənaye müəssisələrində mühasibat uçotunun təşkilinin aktual məsələləri" adlı vebinar keçirilib.*

Ölkənin müxtəlif müəssisə və təşkilatlarını təmsil edən 60-a yaxın iştirakçının qoşulduğu vebinara moderatorluq edən Maliyyə Tədris Mərkəzinin direktoru, dosent Mehriban İmanova sənaye quruculuğu istiqamətində görülən məqsədyönlü tədbirlərin təzahürü olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2022-ci ilin muxtar respublikamızda "Sənaye ili" elan olunduğunu diqqətə çatdırıb, bu sahədə qazanılan uğurlardan bəhs edib. Bildirilib ki, Dövlət proqramlarının uğurla reallaşdırılması nəticəsində ümumi daxili məhsulun həcminin 13 dəfə, sənaye məhsulları istehsalının həcminin 42 dəfə artması müasir mənzərəni səciyyələndirir. Bu illər ərzində muxtar respublika aqrar regiondan sənaye regionuna, elektrik enerjisi idxalçısından ixracatçıya çevrildi.

Bakı Mühəndislik Universitetinin Mühasibat uçotu və audit kafedrasının müdiri, dosent Firudin Sultanov, Cahan Holdinqin Maliyyə direktoru Elvin Həsənov, İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin rəhbəri Radil Fətullayev, Maliyyə Tədris Mərkəzinin təlimçisi Azər Məmmədov müxtəlif mövzularda çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

Estafet

# Dağların qoynundakı yurd yerim

*Ötən həftə sonu şəhərin səs-küyündən qaçmaq üçün kəndimizə üz tutdum. Taksiyə əyləşib gedəcəyim ünvanı söylədim. Qıvrıla-qıvrıla uzanan yollar məni uşaqlığımın keçdiyi Qarabağlar kəndinə apardı. Dəqiqələr bir-birini qovaladıqca yavaş-yavaş mənzilə yaxınlaşırdım. Artıq uzaqdan kəndimizin dağları göründü. Bu valehedici mənzərəni heyranlıqla izləyir, gözlərimi vüqarlı dağlardan çəkə bilmirdim. Sanki altı min illik yaşı olan “Kəngərli” tayfası bu dağların ətəyindən əl uzadaraq, “xoş gəldin”, – deyirdi. Dağların başını həsrət buludları almışdı. Hər biri “bir əlçim” olan bu buludlar dağların xəyal qəhrəmanları idi. Üfüqdə parlayan Günəşin baxışları arasından görünən bu xəyal qəhrəmanları dağlardan ilham alırdı.*



Dağlar isə Elxani hökmdarı Hülakü xanın yadigarı olan və bizə XII əsr memarlıq tarixindən miras qalan Qarabağlar Türbə Kompleksindən, Orta Tunc dövrünün izlərini özündə saxlayan Qalacıq yaşayış məskənindən, Pələng qayası dağının cənub ətəklərindən süzülərək ana laylasına məxsus bir zümzümə ilə çöllərə səs salan Asnı bulağından ilhamlanırdı. Dağların bu ilhamı səmada süzən quşların cəh-cəhində eşidilir, bu səsi eşidənləri ovsunlayırdı. Suların zümzüməsindən və quşların nəğməsindən yaranan bu ahəng insanın yorğun düşmüş ruhunu oxşayırdı.

Artıq mənzilə çatmışdım, amma ruhumu ovsunlayan bu aləm məni ata ocağına deyil, başqa bir istiqamətə aparırdı. Atdığım hər addımda, həm kədərlənir, həm də qürurdan ürəyim dağa dönürdü. Elə bir dağa ki, bir az hüzn və bir az da həsrət qoxurdu. Artıq addımlarım yavaşlamışdı, dalğalanan bayraqlar cənnətin gül qoxusunu üzümə vururdu. Tarixi özündə yaşadan bu yerlərin həm də qoynunda tarix yazan igidlər uyuyurdu. Kəndin girəcəyində uyuyan el qeyrətli şəhidlərin məzarı artıq hamının ilk ziyarət yerinə çevrilib. Bir neçə dəqiqə yurdumun qeyrət simvoluna dönən bu məzarları sükut içində izlədikdən sonra oradan ayrıldım. Kəndin təmiz havası üzümə toxunduqca sanki dünyaya yenicə qədəm qoyan məsum bir körpəyə çevrilir, qəmdən, kədərdən uzaqlaşaraq hər qarışı tarix olan bu yerlərin cazibəsinə qapılırdım. Xəyallarım məni uzaqlara, Övliya Çələbinin yazdığı və Qarabağlar kəndinin adı keçən “Səyahətnamə” əsərinə apardı. “Səyahətnamə”də qeyd edilir ki, Qarabağların 50 min əhalisi olub. Şəhərdə 40 məscid var imiş. Onun qeydlərində Qarabağlarla bağlı ən maraqlı hissə bağbanın hədiyyəsidir. Övliya Çələbi ürəkdolusu söhbət açır: “Allaha həmd olsun, bu şəhərin ab-havasının lətafətindən əhvalımız da xoş olub, atlara süvar olmaqla bəzi rəfiqlərimizlə şəhərə tamaşa etdik... Havasının lətafətindən xoşüzlü məhbub və məhbubələrə rast gəlirdik. Yeyəcək və içəcəklərinin, meyvələrinin bənzəri heç bir diyarda yoxdur. Qara Bağlar desək, yerinə düşər. Elçi ilə bir bağı gəzərkən Yəzdan Qulu adlı bir bağban iyirmi altı cür şirəli armud gətirdi... Armudlar elə dadlı və şirəlidir ki, suyu yeyənin üzərinə, əlbəttə, nabat şərbəti kimi tökülər... Böyük bazarlarında pak və pakizə işçilərinin bişirdiyi cürbəcür Rəvan düyüsündən plovlar və hərisəsi sanki sifr kimi ləziz və xoş ətirlidir. İşçiləri olduqca təmizdir. Zira cümləsi müsəlmandır”.

Keçmişdə olduğu kimi, bu gün də Qarabağlar kəndi öz gözəlliyi ilə göz oxşayır. Abad yolları, sərin bulaqları, kəhrizləri, təhsil ocaqları, məscidi, tibb məntəqəsi, mədəniyyət evi ilə müasirliyi və inkişafı özündə birləşdirir bu qədim yurd yeri.

Dünyaya göz açdığım bu kənddə əvvəl anamın laylası, faydalı məsləhət və nəsihətlərindən, əlimdə çanta məktəbə qədəm qoyduğum gündən isə müəllimlərimizdən, ədəbiyyatımızdan yurd sevgisi, Vətən məhəbbəti, adət-ənənəmizi qorumaq, yaşatmaq, milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi, dilimizi, dinimizi, keçmişimizi yaxşı bilməli olduğumuzu, onu unutmamağı öyrəndim.

Mənim doğma kəndim elə bir sehrli aləmdir ki, buraya qədəm qoyduğun ilk andan etibarən insanda yaradıcılıq eşqi baş qaldırır. O yerdə ki yaradıcılıq eşqi, o yerdə ki sənət nəfəsi var, dünyaya, həyata sənətkar baxışı var, orada insan ürəkdolusu nəfəs alır, həqiqi yaşamın gözəlliyini hiss edir, duyur. Elə bu andaca Səməd Vurğunun yazdığı bir şeir yadıma düşür:

*Mən bu yaşıl bağların,*
*Bu yarpızlı dağların*
*Bəslədiyi bir canam.*
*Hisslərim, həyəcanım*
*Həp onlarla çırpınar.*

Qəribsəmiş ruhum qoynunda igidlərin uyuduğu bu torpaqla birləşəndən həsrətin dumanları artıq görünməz olmuşdu. Mən sevinclə ata ocağına



doğru addımlayır, qarşılaşdığım hər insanla salamlaşır, hal-əhval tuturdum. Özümüzü dərk edəndən bəri bizə belə öyrədiblər ki, evdən çıxıb, yol gedəndə qarşınıza çıxan hər kəsə salam verin. Bu, yazılmamış bir qayda-qanundur. Ona görə də kəndə gedəndə anam məni ilk olaraq yaşlı qohumlarımızın, sonra isə qonşuların yanına hal-əhval tutmağa aparır. Qonaqpərvərlik, insanların bir-biri ilə xoş münasibəti, qayğıkeşliyi bizim kəndin camaatının gündəlik həyat tərzidir. Belə bir deyim var ki, “Qonşuluq, yaşadığımız yerin mədəniyyətini əks etdirən əhəmiyyətli bir göstəricidir”. Kəndimizdə keçmişdən bu günə qədər qorunub saxlanan gözəl münasibətlərdən biri də qonşuluqdur. Uşaqlığımın keçdiyi bu məhəllədə hər zaman qonşularımızın evini öz doğma ocağımız kimi görmüşük. Bu səbəbdən də qapısını döydüyüm bütün qonşularımız məni görən kimi öz doğma övladını görmüş kimi sevinirlər.

Kəndimizdə heç vaxt kasıb-varlı bölgüsü olmayıb. Sosial status anlayışı yoxdur. Tutaq ki, kiminsə imkanı bir qədər yüksəkdir. Ola bilər, amma o da kənddə digər sakinlərdən seçilmir. Bir sözlə, sadəlik öz dəyərini hələ də qoruyub saxlayır.

Ağsaqqal və ağbirçəklərimizi ziyarət etdikdən sonra yenidən ata ocağına qayıtdım. Atam artıq həyətdə samovarı yandırmışdı. Bunu da xüsusilə vurğulayım ki, Qarabağlar kəndinə yolunuz düşərsə, mütləq kəndin dağlarında bitən kəklikotu ilə dəmlənmiş samovar çayından için. Çünki buranın kəkliotusunun ətrini heç bir yerdə dada bilməzsiniz. Yaz Günəşinin ilıq istisi altında elə həyətdə – samovar başında çay süfrəsi qurduq. Bütün ailəmizlə bir masa arxasında əyləşib, çayımızı iça-içə şirin söhbətə girişdik. Vaxt o qədər xoş idi ki, zamanın necə gəlib keçdiyini anlaya bilmədik. Artıq şəhərə qayıtmaq anı çatmışdı. Anam hər zamankı kimi yenə bizim üçün bağlama hazırlamışdı. Keçmişdən günümüzə qədər gəlib çatmış adətlərdən biri də bu idi. Qız övladını qonaq getdiyi ata evindən heç vaxt əli boş yola salmazlar. Bağlamaları da maşına yerləşdirib yola çıxdıq. Doğrusu, kənddən heç ayrılmaq istəmirdim. Amma dərsə gedəcəyim üçün qayıtmaq məcburiyyətində idim. Kənddən ayrılanda maşının arxa şüşəsindən vüqarlı dağlarımıza bir daha dönüb baxdım. Düzdür, hava qaralmışdı, amma yenə də uzaqda bu dağların döşündə hələ də mənə əl edən Kəngərli tayfasını gördüm. Bu dəfə onlar qonaqlarını yola salırdılar. Maşının açıq qalan pəncərəsindən içəriyə dolan yaz mehi isə sanki cənnətin qoxusunu içəri doldururdu. Artıq kənddən xeyli uzaqlaşmışdıq. Amma burada rahatlıq tapan ruhum və düşüncələrim kəndimizdən heç ayrılmaq istəmirdi...

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## Yaşayış məntəqələrinin telekommunikasiya şəbəkəsində təmir-bərpa işləri aparılır



Muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində yeni texnologiyalar geniş tətbiq olunur. Bu sahənin maddi-texniki bazasının gücləndirilməsi əhalinin informasiya-kommunikasiya texnologiyalarına çıxış imkanlarını yaxşılaşdırıb, bütün yaşayış məntəqələri fiber-optik xətt və sürətli internetlə təmin edilib. Rabitə xətlərinin texniki normalara uyğunlaşdırılması, internet tutumlarının artırılması, yeni telefon çəkilişlərinin aparılması məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Rabitə xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsi istiqamətində görülən işlər hazırda Naxçıvan şəhərinin bir neçə yaşayış məntəqəsini əhatə edib. Xətai məhəlləsində tikinti işlərini həyata keçirən müvafiq qurumlar tərəfindən aparılan quruculuq işləri çərçivəsində rabitə xətti təsərrüfatında əsaslı təmir işləri aparılır, kabel-kanalizasiya qurğuları inşa edilir, hava rabitə xətləri yeraltına keçirilir, yeni abonent qutuları və paylayıcı şkaflar əlavə edilir, zədələnmiş kabellər yeni kabellərlə əvəz olunur.

Bunlarla yanaşı, yeni inşa olunan “Gəmiqaya Nəqliyyat” Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində fəaliyyət göstərən oksigen, azot və asetilen istehsalı müəssisəsinə rabitə xətlərinin çəkilməsi məqsədilə mövcud paylayıcı şkafdan 1900 metr müxtəliftutumlu rabitə xətləri və 2500 metr fiber-optik kabel çəkilib.

Qeyd edək ki, Qaraçuq kəndində isə vətəndaşların sabit şəbəkə telefon çəkilişinə olan tələbatı nəzərə alınaraq 256 nömrətutumlu yeni avtomat telefon stansiyasının quraşdırılması məqsədilə müvafiq zəruri işlər də görülür. Belə ki, yeni abonent qutuları və paylayıcı şkaflar əlavə edilir, dəmir dirəklər basdırılır.

Görülən bu işlər həmin ərazilərdə yeni rabitə infrastrukturunun yaradılmasına, əlavə telefon çəkilişlərinə və internet xətlərinin yenilənməsinə şərait yaradacaq.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Şahbuz rayonunda da qaynar təsərrüfat həyatı yaşanır

Qəlblərə ilham bəxş edib, ruha hüzur sığalı çəkən, həzin-həzin axan çayların şəfqətindən bərəkət ətrinə bürünərək, sıldırım qayaların, əzəmətli dağların qucağında gözəllik işığı kimi parlayır Şahbuz. Yayda Kükünün qırmızıyanaq alması ilə soraqlanan, payızda qışa hazırlıq görən insanlarla təbiətin harmoniyasına qərq olan, qışda qonaqlarının görüşünə tələsən xizək mərkəzi ilə sevilən bu bölgəmiz yazda sinəsi müxtəlif şəfalı bitkilərlə, lalələrlə, nərgizlərlə bəzənərək əsrarəngiz, mükəmməl bir bahar tablosunu xatırladır. Öz təbii təravətini qoruyub saxlayan, ilbəil daha da müasir infrastruktura sahib olan Şahbuzda 2022-ci ilin bahar mövsümünə də əsl qaynar təsərrüfat işlərinə ilə start verilib. Belə ki, Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə əlaqədar müvafiq işlər həyata keçirilib, ayrı-ayrı istiqamətlər üzrə bir sıra işlər görülüb.



Yaz təsərrüfat işləri çərçivəsində əvvəlcə Şahbuz Rayon İcra Hakimiyyəti tərəfindən ayrı-ayrı kənd təsərrüfatı bitkiləri üzrə əkin zamanı aqrotexniki qaydalara əməl edilməsinə, istifadə olunan toxumların məhsuldarlığına, keyfiyyətinə və yerli iqlim şəraitinə uyğunluğuna nəzarət gücləndirilib. Bu məqsədlə Kolanı, Keçili, Külüs, Nursu, Şahbuzkənd, Daylaqlı, Badamlı, Sələsüz və Türkeş kəndlərində maarifləndirmə tədbirləri keçirilib. Eyni zamanda rayon ərazisindəki hidrotexniki qurğuların işlək vəziyyətdə olması yoxlanılıb, suvarma kanallarının və arxların vaxtında lildən təmizlənməsi işləri icra edilib. Həmçinin yaylaq mövsümünə hazırlıqla əlaqədar epizootiya tədbirlərinin davam etdirilməsi, profilaktik peyvəndləmə və dezinfeksiya işlərinin aparılması məqsədilə rayon Baytarlıq İdarəsi tərəfindən 25062 baş xırdabuynuzlu heyvanda qarayara xəstəliyinə, 12771 baş iribuynuzlu heyvanda isə dabaq xəstəliyinə qarşı peyvəndləmə işi aparılıb.

Cari ilin yaz-tarla işləri ilə əlaqədar rayonun şəhər, qəsəbə və kənd yaşayış məntəqələrində təmizlik və səliqə-sahman işləri görülüb, yerli sortlardan ibarət meyvə bağlarının salınması, mövcud yaşıllıq sahələrindəki ehtiyac olan hissələrdə bərpa işləri aparılıb. Görülən işlərin davamı kimi ötən günlərdə Daylaqlı kəndi ərazisində yeni meyvə bağının salınması üçün 2 hektar sahə hazırlanaraq əkinəyararlı vəziyyətə gətirilib, 1900 alma, ərik, gavalı və gilənar tingləri əkilib. Mərəlik kəndi ərazisində 1 hektar meyvə bağında bərpa işləri zamanı 320 ərik və badam tingləri torpağa basdırılıb. Rayonda yerli şəraitdə yetişdirilən tinglərə üstünlük verilməsi və yeni toxmacarların əkilməsi diqqətdə saxlanılıb, yaşıllaşdırma tədbirlərində yerli tingçilikdə yetişdirilən 2220 ərik, gilənar, alma və gavalı tingindən istifadə olunub. Bundan əlavə, rayonun idarə, müəssisə və təşkilatları tərəfindən yaşıllıq sahələrində 38 min üzüm çubuğu basdırılıb.



Şahbuz Rayon İcra Hakimiyyətində yaradılmış reyd qrupları rayonun Badamlı qəsəbəsində, Mahmudoba, Nursu, Şahbuzkənd, Daylaqlı, Kiçikoba, Türkeş, Sələsüz, Mərəlik, Badamlı, Şada, Qızıl Qışlaq, Güney Qışlaq, Aşağı Qışlaq, Yuxarı Qışlaq, Gömür, Ağbulaq, Biçənək və digər kəndlərində reyd yoxlamaları keçirib. Həmçinin adıçəkilən kəndlərin ərazilərində elektrik, qaz xətlərinin də istismara yararlılığı yoxlanılıb. Aşkarlanan nöqsanlar barədə aidiyyəti üzrə məlumat verilib, maarifləndirici söhbətlər aparılıb. Bu istiqamətdə reydlər davam etdirilir. Eyni zamanda dini mərasimlərin, ziyarətlərin dini dəyərlərimizə uyğun şəkildə keçirilməsi üçün rayon ərazisində yerləşən qəbiristanlıqlarda təmizlik işləri aparılıb, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərə müvafiq tapşırıqlar verilib.

Müşavirədə qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Şahbuzun yaşayış məntəqələrində, idarə, müəssisə və təşkilatlarında, ictimai-iaşə və ticarət obyektlərində, əhalinin sıxlığı müşahidə olunan yerlərdə dezinfeksiya işlərinin aparılması nəzarətdə saxlanılıb. Eləcə də ticarət və xidmət obyektlərində sanitar-gigiyenik şəraitə nəzarət və işçilərin tibbi müayinədən keçirilməsi məqsədilə yoxlamalar keçirilib. İşçilərin tibbi kitabçaları yoxlanılıb, obyektlərdə sanitar-gigiyenik şəraitə əməl edilməsi ilə əlaqədar maarifləndirici söhbətlər aparılıb. Naxçıvan və Şahbuz şəhərlərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına ailə təsərrüfatı məhsullarının çıxarılması üçün köməklik göstərilib.

Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə verilən tapşırıqların icrası istiqamətində görülən işlər belə deməyə əsas verir ki, digər bölgələrimizlə yanaşı, Şahbuzda da yaz-tarla işləri uğurla yekunlaşacaq, rayonun iqtisadiyyatında kənd təsərrüfatının rolu daha da artacaq.

**Nail ƏSGƏROV**




**2022-ci il "Şuşa ili"dir**

# "Şuşa ili" əbədi və Böyük Qayıdışın addımlarını daha da sürətləndirəcək

***Müasir dövrümüzdə dünyada ciddi narahatlıq yaradan, həmçinin qlobal problemlərdən biri də qaçqın və məcburi köçkünlərlə bağlıdır. BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığının məlumatına əsasən müharibə, münaqişə və zorakılıq səbəbindən dünyanın müxtəlif ölkələrindən bu qəbildən olan insanların ümumi sayı 82 milyon nəfərdən çoxdur. Əfsus ki, bu tendensiya hələ də artmaqda davam edir. Bu gün ölkəmizdə isə mövcud mənzərə tamamilə fərqlidir. Belə ki, Azərbaycan Respublikasında məcburi köçkünlüyə səbəb olan əsas problem 27 sentyabr 2020-ci ildən etibarən Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun böyük şücaəti, qorxmazlığı və döyüş əzmi sayəsində aradan qaldırılıb.***

Əvvəlcə ölkəmizdə məcburi köçkün probleminin tarixi xronologiyasına qısaca nəzər yetirək.

Məlum olduğu kimi, XX əsrin 80-ci illərin sonları, 90-cı illərin əvvəlləri ölkəmiz üçün çətin, ağır, eyni zamanda bir o qədər də taleyüklü sınaq dövrü idi. Özlərini daim əzəli torpaqlarımızda aborigen xalq kimi göstərməyə çalışan Ermənistan həmin zaman kəsiyində Azərbaycana qarşı açıq formada əsassız ərazi iddiaları ilə çıxış edərək hərbi təcavüzə başlamışdı. Xalqımıza qarşı həyata keçirilən erməni terroru minlərlə azərbaycanlının taleyinə çox ciddi təsir göstərmiş, nəticə etibarilə, bir milyondan artıq soydaşımız öz dədə-baba yurdundan didərgin düşmüş, daxili miqrasiyaya məruz qalmışdı. Bu səbəbdən də miqrasiya prosesləri, ümumilikdə, Azərbaycan üçün yeni bir məfhum deyil. Xüsusilə qeyd edilməlidir ki, Ermənistanın azərbaycanlılara qarşı aparılan kütləvi etnik təmizləmə, deportasiya və təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycan həm də keçmiş SSRİ-də qaçqın və məcburi köçkün problemləri ilə üzləşən ilk respublika olmuşdu və bu gün də əhalisinin sayına görə ən çox qaçqın və məcburi köçkünü olan ölkədir.



90-cı illərin əvvəllərində cərəyan edən məlum hadisələrdən sonra ölkədaxili məcburi miqrasiyanın əsas subyektini Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Qarabağdan, habelə ona bitişik olan digər ətraf rayonlardan həyat üçün təhlükəli yaşayış məntəqələrini tərk etmiş məcburi köçkünlər təşkil edir. Atəşkəslə bağlı razılığın əldə olunduğu dövrdə – 1994-cü ildə BMT QAK-ın verdiyi statistik məlumata əsasən ölkəmizdə, təxminən, bir milyona yaxın nəfər məcburi köçkün həyatı yaşayır.

Müasir, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra bütün istiqamətlərdə olduğu kimi, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli də davamlı olaraq diqqətdə saxlanılmış, onların məişət şəraitinin yaxşılaşdırılması üçün dövlət səviyyəsində tədbirlər həyata keçirilmişdir. Qaçqın və məcburi köçkünlərlə görüşündə ***"Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu sizi də, bizi də incidir"***, – deyən dahi lider onların ağrılarını hər zaman dərindən duyur, mövcud problemlərinə böyük həssaslıqla yanaşırdı. Bu istiqamətdə ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin davamı kimi müxtəlif dövrlər ərzində "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlar və "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə" Dövlət proqramı qəbul edilmişdir. Əminliklə deyə bilərik ki, ümummilli liderin rəhbərliyi dövründə daxili miqrasiyaya məruz qalan qaçqın və məcburi köçkünlərin problemləri dövlət siyasətinin prioritetlərindən birini təşkil edib və onlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Bu yüksək qayğı müdrik siyasətçinin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən sonrakı illərdə də uğurla davam etdirilib. Belə ki, ölkə Prezidentinin 2009-cu il 14 aprel tarixli müvafiq Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nda da bu mühüm məsələyə – miqrasiya proseslərinin tənzimlənməsinə, sosial-iqtisadi amillərlə bağlı daxili miqrasiyanın fəsadlarının aradan qaldırılmasına xüsusi yer ayrılıb. Ölkəmizin müxtəlif bölgələrində qaçqın və məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün qəsəbələr salınmış, onlarla təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilmiş, həmçinin məşğulluq probleminin həlli istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir. Eyni zamanda ötən dövrdə 200 min məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilmişdir ki, bu da məcburi köçkünlər arasında yoxsulluq həddini 75 faizdən 12 faizə qədər endirmişdir. Bu gün qaçqın və məcburi köçkünlərlə bağlı reallaşdırılan ardıcıl və məqsədyönlü tədbirlər bir daha təsdiq edir ki, miqrasiya proseslərinin tənzimlənməsi və proseslərə nəzarət, eləcə də daxili miqrasiyanın təzahürlərinin aradan qaldırılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Öz doğum gününü ənənəvi olaraq məcburi köçkünlər və şəhid ailələri ilə birgə qeyd edən, onların sosial problemlərinin həllinə daim həssaslıqla yanaşan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azərbaycan xalqı yaxşı bilir ki, mən ad günlərimi qeyd etmirəm. Adətən, ad günlərimə təsadüf edən günlərdə hansısa sosial obyektlərin açılışında iştirak edirdim, məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşürdüm. Şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, yeni salınmış köçkün qəsəbələrində bu kateqoriyadan olan insanlarla görüşürdüm. 50 illiyimi də məcburi köçkünlərlə bərabər qeyd etmişdim. 50 illiyimi Qarabağda – Ağcabədidə keçirdim, 60 illiyimi isə Qarabağda – bu dəfə Şuşada keçirirəm".*** Müzəffər Ali Baş Komandanın bu fikirləri, şübhəsiz ki, həm də xalq-lider həmrəyliyinin növbəti təcəssümüdür.

Qaçqın və məcburi köçkünlərin mövcud problemlərinin ikinci istiqaməti isə əzəli və əbədi doğma torpaqlarımıza böyük Qayıdışla bağlıdır. Məlum olduğu kimi, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə daim etinasız yanaşaraq onları kobud şəkildə pozması, işğal edilmiş ərazilərdən məcburi daxili miqrasiyaya məruz qalmış azərbaycanlıların öz yurdlarına qayıtma hüququnu rədd etməsi, "yeni ərazilər, yeni müharibələr" iddiası, habelə intensiv təxribatları nəticəsində rəşadətli Azərbaycan Ordusu 2020-ci ilin payızında haqq savaşına başladı. 30 ilə yaxın acı həsrətə, nisgilə dönən, illər ərzində işğala məruz qalan doğma torpaqlarımız cəmi 44 gün ərzində düşmən tapdağından azad edildi. Qarlı, şaxtalı soyuq qış gecələrində öz dədə-baba yurdlarından ayaqyalın çıxarılan uşaqlar qalib ordunun şanlı əsgəri kimi ən müasir texnikalarla, böyük sevinc və qürur hissi ilə torpaqlarına əbədi olaraq geri qayıtdılar. Tarix növbəti dəfə sübut etdi ki, Azərbaycan xalqı mübarizdir, polad iradəlidir, ***"Qarabağ Azərbaycandır!"*** şüarı ilə hər zaman bir yumruq kimi birləşməyə qadirdir.

10 noyabr 2020-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən Qarabağda hərbi münaqişənin başa çatdığını ehtiva edən üçtərəfli Bəyanatın imzalanması faktiki olaraq Ermənistanın kapitulyasiyasını, müzəffər Azərbaycan Ordusunun isə qələbəsini rəsmiləşdirdi. Qeyd olunan bəyanatın 7-ci bəndi ölkə daxilində məcburi miqrasiyanın əsas hissəsini təşkil edən məcburi köçkünlərin doğma yurdlarına qayıtmasına geniş imkan yaratdı. Belə ki, bəyanata əsasən daxili məcburi köçkünlər və qaçqınlar Qarabağ ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır. Bu bir daha onu təsdiq edir ki, ürəyi Qarabağ həsrəti ilə döyünən, daim bu arzu ilə yaşayan azərbaycanlı məcburi köçkünlər yaxın zamanlarda yurdlarına, doğma torpaqlarına qayıdacaqlar.

Əldə edilən tarixi zəfər və parlaq qələbə bütün Azərbaycan xalqı ilə birgə, bəlkə də, ən çox məhz onları sevindirib. Əslində, qaçqın və məcburi köçkünlərin yenidən öz yurd-yuvalarına qayıdışı istiqamətində atılan addımların ilk səsi 2016-cı ilin şanlı Aprel zəfərindən sonra eşidildi. Belə ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi erməni işğalından azad edildikdən qısa müddət sonra burada insanların rahat, təhlükəsiz yaşaması üçün bütün zəruri tədbirlər həyata keçirilmiş, yenidənqurma və bərpa işlərinə başlanılmışdır. Habelə ölkə Prezidentinin müvafiq Sərəncamına əsasən fərdi yaşayış evləri, ümumtəhsil məktəbi, hidrometeoroloji stansiya inşa edilmiş, ilk dəfə Şuşa məscidinin bənzəri olan məscid tikilmiş, digər sosial infrastrukturların yaradılması istiqamətində bir sıra əhəmiyyətli işlər görülmüşdür.

Bu gün artıq məcburi köçkünlərimiz hər yeni bir günü doğma ev-eşiklərinə qayıtmaq əminliyi ilə açırlar. 30 ilə yaxındır ki, yurd həsrəti ilə yaşayan, mənfur düşmənin çirkin oyunları qarşısında Vətənində vətənsiz qalmış köçkünlərimiz tezliklə dədə-baba yurdlarına qayıdacaq, şübhəsiz ki, bundan sonra da davamlı dövlət qayğısı ilə əhatə olunacaqlar. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: ***"Məcburi köçkünlərin öz doğma torpaqlarına, əsrlərboyu xalqımızın yaşadığı ərazilərə geri qaytarılması təcavüzkar və işğalçı Ermənistana qarşı aparılan mübarizənin və əldə olunan möhtəşəm qələbənin əsas məqsədlərindəndir. Məhz buna görə də məcburi köçkünlər öz doğma yurdlarına qayıtmaq istəyirlər və onlar bunu ölkə rəhbərliyinə, eləcə də Dövlət Komitəsinə son dövrlərdə yüzlərlə edilən müraciətlərində ifadə edirlər. Onlar nəinki qayıtmaq, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda quruculuq işlərində fəal iştirak etmək əzmində olduqlarını daim bildirirlər".***

Xüsusilə qeyd edilməlidir ki, ötən dövr ərzində ölkə başçısının tapşırığı ilə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən məcburi köçkünlər arasında hərtərəfli, genişmiqyaslı sorğular keçirilib. Sorğuda iştirak edən məcburi köçkün və qaçqın soydaşlarımızın böyük əksəriyyəti – 95 faizindən çoxu doğma torpaqlarına qayıtmaq arzusundadırlar. Respondentlərin yarıdan çoxu (51,1 faizi) işğal altında olan ərazilərdəki evlərinin sənədlərini, hətta açarlarını belə, saxlamaqdadır. Fərəhli haldır ki, sorğuda iştirak edənlər sırasında gənclər də xüsusi üstünlük təşkil edib. Belə ki, onların 90 faizindən çoxu gələcəkdə işğaldan azad olunan ərazilərə qayıtmağı, orada işləməyi planlaşdırır. Sorğunun diqqətçəkən məqamlarından biri də odur ki, bu gün məcburi köçkün olmayan vətəndaşların belə, hər dörd nəfərindən biri və yaxud 22,3 faiz respondent Qarabağa daimi yaşamaq üçün gedəcəyini qeyd edib.

Bu gün əzəli və əbədi yurdumuz olan Qarabağın yenidən cənnətməkana çevrilməsinin, qısa zaman ərzində burada böyük quruculuq, yenidənqurma və bərpa, eyni zamanda təhlükəsizliyin mütləq sürətdə qorunması istiqamətində görülən işlərin canlı şahidləriyik. Reallaşdırılan məqsədyönlü tədbirlərin məntiqi davamı kimi, Qarabağ və ətraf bölgələrində 15 min hektardan çox ərazi minalardan təmizlənmiş, genişzolaqlı avtomobil yolları çəkilmiş, cəmi 7 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilmiş, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri hazırlanmış, habelə mədəniyyət beşiyimiz olan Şuşa şəhərində bir çox tarixi binalara və abidələrə ikinci həyat verilmişdir.

Bu gün beynəlxalq arenalarda söz və nüfuz sahibi olan Azərbaycan dayanıqlı və dinamik inkişaf mərhələsinə qədəm qoyub. Bu yeni inkişaf mərhələsi uzun illər düşmən tapdağında qalan torpaqlarımızın azadlıqdan abadlığa, quruculuq mədəniyyətinə keçidi ilə şərtlənir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***"Şuşa əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".*** Bu gün Şuşa öz doğma sahiblərinə qovuşmanın, 28 illik həsrətin sevincini yaşayır. Ötən il ərzində "Xarıbülbül" musiqi festivalının keçirilməsi, Cıdır düzündə musiqi sədalarının yüksəlməsi və ən önəmlisi, hər zaman nisgillə dinlədiyimiz "Qarabağ" şikəstəsinin, "Bayatı-Şiraz"ın səslənməsi bütöv Azərbaycanı bir daha sevinc göz yaşına qərq etdi. Bu göz yaşları Böyük Qayıdışın, qürurun, sevincin təntənəsi idi.

Ötən il Azərbaycan dövlətinin, eyni zamanda Böyük Türk dünyasının həyatında baş verən mühüm hadisələrdən biri də, şübhəsiz, qədim mədəniyyət mərkəzimiz olan Şuşa şəhərində müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanmasıdır. 15 İyun – Milli Qurtuluş Günündə Azərbaycan və Türkiyə Respublikası prezidentlərinin azad olunmuş rayonlarımıza səfəri və Şuşa Bəyannaməsini birgə imzalamaları hər iki ölkə arasındakı strateji müttəfiqlik münasibətlərinin rəsmiləşdirilməsi və iki qardaş dövlət arasındakı əlaqə və əməkdaşlığın daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ölkədaxili məcburi miqrasiyaya məruz qalan köçkünlərimizin əbədi qayıdışına rəvac verən amillərdən biri də 2022-ci ilin ölkəmizdə "Şuşa ili" elan edilməsidir. Azərbaycan Respublikası Prezidentinin 2022-ci ilin "Şuşa ili" elan olunması barədə müvafiq Sərəncamı, şübhəsiz ki, milli mədəniyyətimizin, incəsənətimizin və tariximizin inkişafına misilsiz töhfələr verməklə yanaşı, məcburi köçkünlərimizin əzəli və əbədi doğma yurdlarına Böyük Qayıdışını daha da sürətləndirəcəkdir.

*Sonda onu da qeyd edək ki, bu gün Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı fəaliyyətə başlayır. 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirak edəcəyi Zəfər Qurultayı son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirən, beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad olunmasından sonra ilk böyük görüşüdür. Qurultayda bundan sonra diasporun fəaliyyətini müəyyənləşdirəcək mühüm qərarların qəbul ediləcəyi gözlənilir.*

**Arif BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Muxtar respublika yazıçıları ilə şagirdlərin görüşü olub



Naxçıvan Dövlət Texniki Kollecində muxtar respublika yazıçıları ilə şagirdlərin görüşündə çıxış edən təhsil naziri Rəhman Məmmədov bildirib ki, muxtar respublikanın yazıçıları ilə təşkil edilən görüş "Mütaliə aylığı" çərçivəsində keçirilən silsilə tədbirlərin davamıdır. Təhsil müəssisələrində yazıçı və şairlərlə görüşlərin, onların əsərlərinin müzakirələrinin keçirilməsi şagirdlərdə mütaliə mədəniyyətinin formalaşdırılmasında, onlarda yaradıcılığa marağın artırılmasında mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev çıxış edərək muxtar respublikamızda elmə, ədəbiyyata verilən dəyərdən danışıb.

Şərur rayon Aralıq kənd tam orta məktəbinin 9-cu sinif şagirdi Sabrina Mədətova isə yaxşı təhsil alması üçün yaradılan şəraitə və yaradıcılıq yolunda ona dəstək olanlara minnətdarlığını bildirib.

Sonda Yazıçılar Birliyinin üzvləri şagirdlərə öz kitablarını imza edərək hədiyyə veriblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Musiqi tariximizdə özünəməxsus izi olan bəstəkar

***Dahilər, istedadlar diyarı Naxçıvan Azərbaycanın musiqi mədəniyyəti tarixində özünəməxsus yer tutur. Bu yurdun yetirdiyi şəxsiyyətlərdən, Naxçıvan musiqi mədəniyyətinin görkəmli simalarından, bu gün yaşlı nəslin belə, çox az-az xatırladığı bəstəkarlardan biri də Məmməd Nəsirbəyovdur. O, Naxçıvanın ilk professional bəstəkarı, musiqişünası, vokal ifaçısı, musiqi mədəniyyətimizin inkişafında əvəzsiz xidməti olmuş bir sənətkardır.***



Uşaqlıq illərində təhsil aldığı məktəbin xor kollektivində iştirak edən Məmməd gözəl səsi ilə hər kəsin diqqətini cəlb edərdi. Onun musiqiyə olan həvəsi incəsənətə böyük maraq göstərən atasından irəli gəlirdi. Yumşaq tembrli, orta diapazonlu tenor səsinə malik olan Mirzə Həsən evdə tez-tez xalq mahnılarını, teatr tamaşalarından müxtəlif melodiyaları zümzümə edərdi.

1911-1912-ci illərdə bəstəkar Zülfüqar Hacıbəyovun Naxçıvana ikinci dəfə gəlişi, bir ilədək burada yaşayıb-yaratması Naxçıvan musiqi mədəniyyətinin, teatr sənətinin inkişafına, eləcə də gənc Məmmədin yaradıcılıq həyatına mühüm təsir göstərmişdir. Atası kimi gözəl tenor səsə malik olan Məmməd musiqi sənətinə vokal ifaçılığı ilə başlamışdır. İlk növbədə, vokal ifaçısı kimi opera səhnəsində gözəl rolların yaradıcısı olaraq xatirələrdə canlanan bəstəkarın Çaykovskinin “Yevgeni Onegin” operasında Lenskinin partiyasını tam şəkildə ifa edən ilk Azərbaycan opera müğənnilərindən biri olduğu bu gün çox az adama məlumdur.

Ailəsi ilə birlikdə Bakıya köçməli olan Nəsirbəyov xalq musiqisinin öyrənilməsinə xüsusi önəm verərək tar ifaçılığına meyil göstərmiş, onun xalq mahnıları və rəqslərinə, klassik muğamlara marağı daha da artmışdı. Həmin dövrdə musiqi təhsili almaq üçün məktəb olmadığından musiqi ilə ustad yanında fərdi şəkildə məşğul olunurdu. 1923-cü ildə dahi bəstəkar Üzeyir bəy Hacıbəyovun təşəbbüsü ilə açılan musiqi məktəbinə daxil olan Məmməd solo oxumaq fənni üzrə Aleksandr Kolotovdan, tar üzrə dərsləri ilə məşhur bəstəkar Ağabacı Rzayevanın babası və muğam bilicisindən – Mirzə Fərəc və Mansur Mansurovdan alır. Məktəbdə yeni nəsil bəstəkarların, nəzəriyyəçilərin, dirijorların hazırlanması məqsədilə Üzeyir bəy məktəbin nəzdində Asəf Zeynallı, Əşrəf Həsənov, Əbülrəhim Kərimov və Məmməd Nəsirbəyovun da iştirak etdiyi istedadlı gənclərdən ibarət qrup yaratmış, onların təhsilinə nəzarəti də öz üzərinə götürmüşdü. Məktəbin hesabat konsertində Məmməd Nəsirbəyovun tam ustalıqla ifa etdiyi “Rast” muğamı sənətkarın musiqi həyatında ilk uğuru idi.

1927-ci ildə təhsilini Bakı Musiqi Texnikumunda davam etdirən Məmməd vokal dərsləri üzrə 1929-1931-ci illərdə M.A.Kolotovanın, sonra isə professor N.İ.Speranskinin sinfində oxuyur. 1923-cü ildən 1940-cı ilədək ardıcıl olaraq təhsil alan Məmməd Nəsirbəyov, eyni zamanda bəstəkarlıq fakültəsində bəstəkarlıq üzrə Nikolay Xeyf, orkestrləşmə üzrə Stefan Ştrasserin sinfində oxuyur. Təhsil illərində əmək fəaliyyətinə də başlayan Nəsirbəyov 1920-1922-ci illərdə Ü.Hacıbəyovun təşəbbüsü ilə Siyasi İdarənin nəzdində yaradılan 70 musiqiçi və 10 tanınmış xanəndədən ibarət olan Azərbaycan xalq çalğı alətləri orkestrində tarzən vəzifəsində çalışır. Orkestr, əsasən, hərbi-dəniz donanması hissələri üçün konsertlər verirdi. Artıq bir musiqiçi kimi püxtələşən Məmməd Nəsirbəyov 1919-1924, 1930-1932-ci illərdə opera teatrında əvvəl xor artisti, sonra isə solist kimi fəaliyyətini davam etdirir. 1931-ci ildən 1937-ci ilədək isə Radio Komitəsində çalışaraq “Arşın mal alan” musiqili komediyasından Əsgərin ariyasının, “Koroğlu” operasından Koroğlunun ariyasının ən yaddaqalan ifaçılarından biri olmuşdur.

1931-ci ildə Bakı Musiqi Texnikumunu bitirən Məmməd Nəsirbəyov 1932-ci ildə Çaykovski adına Moskva Konservatoriyasında professor Q.İ.Litinskidən bir il kompozisiya və polifoniya üzrə dərslər aldıqdan sonra Bakıya qayıdaraq Azərbaycan Dövlət Konservatoriyasında təhsilini davam etdirir və 1940-cı ildə bu tədris ocağını müvəffəqiyyətlə bitirir.

Üzeyir Hacıbəyovun ilk tələbələrindən biri olan Məmməd Nəsirbəyov musiqi tariximizin inkişafı naminə müəlliminin yaradıcılıq işlərini layiqincə davam etdirmişdi. XX əsrin II yarısında uşaq musiqi məktəblərində musiqi nəzəriyyəsi fənni məhz Məmməd Nəsirbəyovun yazdığı “Musiqi təlimi” dərsliyindən tədris edilirdi. 1931-ci ildən bəstəkarlıq fəaliyyətinə başlayan Məmməd Nəsirbəyovun yaradıcılığında simfonik, kamera, xor musiqisi, xalq çalğı alətləri, həmçinin orkestri, mahnı və rəqs ansamblı üçün süitalar, müxtəlif alətlər üçün instrumental pyeslər, mahnı və romanslar əsas yer tutur. Simfonik orkestr üçün yazdığı “Süita”, solist, qarışıq xor və orkestr üçün “Kantata”, simli kvartet üçün “Süita”, xalq çalğı alətləri orkestri üçün “Naxçıvan” rəqs süitası, “Şənlik” uvertürası, Məmməd Rahimin sözlərinə “Nizami” süitası onun çoxşaxəli yaradıcılığının, sadəcə, kiçik bir hissəsidir. Həyatı qədər çox sevdiyi musiqi aləminə tar ilə gəldiyindən, xalq musiqisini dərindən bildiyindən xalq çalğı alətlərinin ifa imkanlarına, diapazonlarına çox yaxşı bələd idi. Bununla bağlı olaraq bəstəkarın yaradıcılığında Azərbaycan xalq çalğı alətləri orkestri üçün yazılmış əsərlərə geniş yer verilmişdir. Görkəmli şair Süleyman Rüstəmin “Mən fəhləyəm” adlı şeirinə yazdığı mahnının partiturası buna əyani sübutdur.

Fortepiano üçün “Sonata”, 6 sonatina, “Fantaziya”, “Ekspromt”, 6 prelüdiya, 9 fuqa, 4 pyes, “Qaytağı”, 4 əl üçün 9 fortepiano pyesi, 12 xalq mahnısının işlənməsi Nəsirbəyovun zəngin fortepiano yaradıcılığından xəbər verir. Skripka musiqi alətinin texniki imkanlarını bilən Nəsirbəyov bu alətin ifaçısı kimi skripka üçün silsilə əsərlər yazmışdır. Gənc skripkaçılar üçün yazdığı variasiyalar, prelüdiyalar musiqi məktəblərində tədris olunmağa davam edir. Üzeyir Hacıbəyovdan sonra Azərbaycan bəstəkarları arasında skripka aləti üçün ilk əsəri Məmməd Nəsirbəyov yazmışdır.

Geniş vokal yaradıcılığına malik olan bəstəkarın onlarla mahnıları konsert salonlarında alqışlarla qarşılanmış, radio dalğalarında sevilərək dinlənilmişdir. Nizami Gəncəvinin “Aşiqəm”, Füzulinin “Ey gül”, Cəfər Cabbarlının “Yada düşdü”, Məmməd Səid Ordubadinin “Kolxozçu qızlar”, “Tarla mahnıları”, Məmməd Rahimin sözlərinə yazdığı “Bizim yurd”, “Bakı”, “Gözəl” mahnıları bu qəbildəndir.

Gələcək nəslin musiqi tərbiyəsinə həssaslıqla yanaşan Nəsirbəyov uşaqlar üçün M.Seyidzadənin sözlərinə “24 mahnı”, məktəbyaşlı uşaqlar üçün “5 mahnı”, fortepiano üçün “12 uşaq pyesi” məcmuələri yaratmışdır. Klassik bəstəkarların ənənəsini davam etdirərək yaradıcılığında uşaqlar üçün kiçikproqramlı əsərlərə də yer vermişdir. Məmməd Nəsirbəyov bir musiqişünas kimi də Azərbaycan musiqisinə öz dəyərli töhfələrini vermişdir. O, 1938-1940-cı illərdə “Hamofon musiqisinin formalarına aid göstərişlər”, 1944-cü ildə “Azərbaycan musiqisinə lad xüsusiyyətləri”, 1955-ci ildə “Elementar musiqi nəzəriyyəsi”, “Alətşünaslıq və orkestrləşdirmə məsələləri üzrə ensiklopedik lüğət”, “Musiqi təlimi” kimi monoqrafiya və kitabları bu gün də istifadə olunmaqdadır.

Yeni nəsil musiqiçilərin təhsilinə diqqətlə yanaşan bəstəkar sonrakı illərini pedaqoji fəaliyyətə həsr etmiş və ictimai fəallığı ilə də seçilmişdir. Onun təşəbbüsü və ciddi səyi nəticəsində Bakının dağlıq hissəsində uşaq musiqi məktəbləri yaradılmışdır. Bu müəssisələrdə direktor vəzifəsində işləyən bəstəkar, eyni zamanda nəzəri fənlər üzrə də dərs aparmışdır. Bütün ömrünü musiqiyə həsr edən, bu sahədə dəyərli sənət nümunələri yaradan bəstəkarın bir çox janrda yazdığı, öz təravətini hələ də itirməyən əsərləri onu bu gün də yaşadır. Bizə isə onun zəngin yaradıcılıq irsini təbliğ etmək və gələcək nəslə çatdırmaq qalır.

**Nərminə QƏDİMOVA**
***Naxçıvan Dövlət Universitetinin əməkdaşı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

# Gənclərin növbəti təmizlik aksiyası



22 aprel – Beynəlxalq Yer Günü ilə əlaqədar Heydər Əliyev Su Anbarının ətrafında təmizlik aksiyası keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Gənclər Fondu və YAP Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin birgə təşkil etdiyi aksiya “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir!” devizi ilə reallaşıb.

Çıxış edənlər vurğulayıblar ki, mütəmadi olaraq təşkil olunan bu tipli aksiyalar gənclərin maarifləndirilməsi, ekoloji biliklərinin artırılmasına xidmət edir. Bu istiqamətdə atılan addımlar Naxçıvan şəhərində və bölgələrdə yaşıllıqların çoxalmasına, ərazilərin məişət tullantılarından təmizlənməsinə, gənclərin muxtar respublikanın təbiəti haqqında ətraflı məlumat almasına və ona qayğıkeş münasibət göstərməsinə səbəb olur. Məlumat verilib ki, 150-yə yaxın ölkədə, o cümlədən Azərbaycanda qeyd olunan Beynəlxalq Yer Günü ilə əlaqədar insanlar müxtəlif ekoloji tədbirlərdə iştirak etməklə ağaclar əkir, yaşıllıqlara qulluq edir, yaşadıqları əraziləri müxtəlif tullantılardan təmizləyirlər.

Aksiyada ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Tarixboyu naxçıvanlılar qəhrəmanlıqları və igidlikləri ilə öz sözlərini cəsarətlə deməyi bacarıblar. Naxçıvanskilərin, Kəngərlilərin döyüş ruhu həmişə dillərə dastan olub. Onların Vətən, yurd, torpaq sevgisi nəsildən-nəslə ötürülüb. Elə ötən əsrin sonlarında başlanan məlum hadisələr dövründə silahımız, sursatımız olmasa da, Vətən sevgimiz var idi, hansı ki bizə atalarımızdan ərməğan qalmışdı.*

### *Əfsanəyə dönən ömürlər*

# Əbədiyyət zirvəsi – şəhidlik



Əhəd Seyidov da onlardan biri idi. O, 1972-ci il aprelin 22-də Şərur rayonunun Məmmədsabir kəndində anadan olmuşdu. Musiqi Məktəbində tar ixtisası üzrə təhsil almışdı.

Erməni mənfurları sərhədlərimizə hücum edəndə o, Türkmənistan Respublikasının Çarjo vilayətində həqiqi hərbi xidmətdə olmasına baxmayaraq, Vətənə qayıtmış və könüllü olaraq döyüşə gedir. Ağdamda, Şuşada, Daşaltıda döyüşlərdə iştirak etmişdi. Daşaltıdakı döyüşlərdə çiynindən yaralanır, müalicə üçün Naxçıvanda evlərinə göndərilsə də, o “istirahət etmək vaxtı deyil, indi döyüşmək vaxtıdır”, – deyib Naxçıvanda yaradılan özünümüdafiə dəstələrinə qoşulur. Kəşfiyyatçı kimi qəhrəmanlıq göstərir. 1992-ci il sentyabrın 7-də Şərur rayonunun Şahbulaq yüksəkliyinin müdafiəsindəki döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Sentyabrın 9-da Şəhidlər xiyabanında dəfn edilir...

Ayna xanım səbirli, təmkinli anadır. Ağır dərdini, sözün əsl mənasında, Vətən sevgisiylə ovudur. “Oğlumun bəy paltarı hərbi libası, toy-büsatı Qarabağın geri alınması oldu!” – deyir. Ağlamıram, hüznlənmirəm oğluma toy xonçası bəzəyə bilmədiyim üçün. Çünki onun məzarı illərdir, xalqın ziyarətgahı olub. Tək dərdim onun uğrunda döyüşdüyü yurdun düşmən tapdağında olması idi. Orada təkcə bir ovuc torpaq yox, şəhidlərin ruhu da narahat idi. Vətən müharibəsində hər qələbə xəbərini eşitdikcə ürəyimdəki sevinc gözümdə yaşa dönürdü. Bu, sevinc göz yaşları idi. Oğlumun, neçə-neçə oğulların qisasının alındığına sevinirəm. Ulu Tanrı ordumuzu müzəffər etdi. İgid oğullarımızın rəşadəti, gələn hər qələbə xəbəri yanan qəlbimizə su səpdi. Övladlarımızın ruhu şad oldu. İşğaldan azad edilən torpaqlardan hazırlanan süjetləri, orada dalğalanan üçrəngli bayrağımızı gördükcə qəlbim dağa dönür. Heç bir müharibə itkisiz olmur. Vətən savaşında şəhid olanların hamısı, elə bilirəm, öz doğmaca balamdır. Amma bir fərq var ki, arada bu fərq belə, bizim ürəyimizə təsəlli olur. Ötən əsrin 90-cı illərində Qarabağda gedən döyüşlərdə həm əzizlərimizi itirirdik, həm də torpaqlarımızı. Vətən müharibəsində isə torpağımızı, yurdumuzu geri aldıq. Qürur duyuruq. Bilirik ki, o canlar, o cavanlar hədər yerə qurban getməyib. Onlar özlərindən öncə bu yolda şəhid olanların qisasını aldılar. Gələn hər şəhid xəbərini öz evimizdə hiss etdik. Şəhidin doğması, yadı olmaz axı. Nə qədər çətin olsa da, başımızı dik tutduq, ağlamadıq. İllərdir, qor bağlayan yaramız sağaldı çünki.

Əvvəllər Şəhidlər xiyabanına gedəndə sanki bir qəm-kədər görürdüm 90-cı illərin şəhid oğullarının baxışlarında… Bu gün isə onların baxışlarında qürur var. Bəli, onların ruhu şad oldu, çünki uğrunda döyüşdükləri torpaqlar artıq azaddır. Artıq o yerlərdə müqəddəs azan səsi var, o yerlərdə Azərbaycan bayrağı dalğalanır. Qürurumuz acımızdan böyükdür daha.

Yaşasaydı bu gün onun 50 yaşı olacaqdı. Bəlkə də, artıq indi oğul-qız yiyəsi idi də demirəm. Çünki onun yüksəldiyi zirvə o qədər ucadır ki, “yaşasaydı” sözü çox aciz qalır o zirvənin yanında, çünki onun Vətən oğulları qədər övladları var Vətən boydakı igidlikləri kimi.

**✍ Ramiyyə ƏKBƏROVA**

# Maarifləndirici tədbir keçirilib

*Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi, tikintiyə nəzarətin məqsədi, növləri və layihələrinin ekspertizadan keçirilməsi qaydalarının izah olunması məqsədilə maarifləndirici tədbir keçirilib.*



Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımov tikintiyə nəzarətin məqsədi və növləri ilə bağlı məlumat verib. Vurğulanıb ki, son zamanlar aparılan tikinti işləri zamanı təhlükəsizliyin təmin olunması istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib, qanunvericilik bazası təkmilləşdirilib. Bu sahədə təsdiq olunan qanunvericilik şəhərsalma və tikinti fəaliyyətinin hüquqi əsaslarını, prinsiplərini, eləcə də dövlətin, bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin şəhərsalma və tikinti fəaliyyəti sahəsində hüquq və vəzifələrini müəyyən edir. Tikintiyə nəzarətin məqsədi obyektin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə əməl olunmaqla tikilməsini təmin etməkdən ibarətdir.

Vüqar Kazımov dövlət nəzarətinin həyata keçirilməsinin təmin olunması üçün tikinti işləri başlamamışdan öncə yerli icra hakimiyyəti orqanları və tikintinin subyektləri hansı işlərin həyata keçirilməsini, ekspertiza təqdim olunan tikinti layihələrinin məzmununu izah edib.

Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəis müavini Nurəddin Tağıyev tikinti layihələrinin ekspertizadan keçirilməsi qaydaları, idarənin əməkdaşı Həbib Kərimov muxtar respublikada istehsal və idxal olunan tikinti materiallarının, həmçinin tikinti işlərində istifadə edilən material, konstruksiya və avadanlıqların müvafiq sertifikatların mövcudluğu, onların dövlət standartlarına cavab verməsi, istifadədən öncə mütləq şəkildə sınaqdan keçirilməsi və həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsindən danışıblar.

Tədbirdə iştirakçıları maraqlandıran suallar da cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Məmmədov Ələkbər Yusif oğlunun adına verilmiş 104013008988 reyestr nömrəli torpaq sahəsinin plan və ölçüsü, 14.01.2015-ci il tarixli MH-0039934 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 344